www.525.az Facebook.com/525-ci qəzet - 525.az Instagram.com/525ciqezet

Anar İsgəndərov-70

# Alim ömrü



Bir sıra sanballı elmi araşdırmaların müəllifi, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, Bakı Dövlət Universitetinin kafedra müdiri, tarix elmləri doktoru, professor Anar İsgəndərovun bu günlərdə 70 yaşı tamam olur. Yubiley ərəfəsində qələmə aldığım bu yazıda görkəmli elm və təhsil xadimin Anar İsgəndərovun həyat və fəaliyyətinə toxunmaq istəyirəm.

Mən əvvəllər Anar müəllimi tədqiqat xarakterli maraqlı tarixi yazılarına görə tanımışam. Onunla yaxından tanışlığım və dostluğa çevrilən münasibətim iki mininci illərin əvvəlinə təsadüf edir.

Anar müəllimin keçdiyi həyat yoluna nəzər saldıqca Azərbaycan tarixinin yorulmaz tədqiqatçısını və qəlbi vətən sevgisi ilə dolu bir ziyalını görmək olar.

Anar Camal oğlu İsgəndərov 10 yanvar 1956-cı ildə Masallı rayonunun Kolatan kəndində dünyaya gəlib, orta təhsilini Kolatan kənd orta məktəbində alıb. 1973-cü ildə Bakı Dövlət Universitetinin Tarix fakültəsinə daxil olan A.İsgəndərov 1978-ci ildə Universiteti bitirdikdən sonra təyinatla Masallı rayonuna göndərilib. 1978-1981-ci illərdə əvvəl rayonun ən böyük orta məktəblərindən biri olan Boradigah qəsəbə orta məktəbində direktor müavini, sonra isə Kolatan kənd orta məktəbində tarix müəllimi işləyib. Lakin təhsilini davam etdirmək istəyi onu 25 yaşında Bakıya qayıtmağa məcbur edir.

Anar müəllim özü o illəri belə xatırlayır: "1982-ci ilin fevralında Lökbatan qəsəbəsində qeydiyyata düşəndən sonra Azərbaycan Neft və Kimya İnstitutunun (AZİ-də) Fəlsəfə kafedrasında kabinet müdiri kimi işə başladım. 1982-ci ilin fevralından 1984-cü ilin fevralına kimi Azərbaycan Neft və Sənaye Universitetində çalışdım. Kafedraya Abbasqulu Ağa Bakıxanovun tədqiqatçısı, böyük ziyalı, təmənnasız insan, ciddi xarakter sahibi, fəlsəfə elmləri doktoru, professor Ənvər Əhmədov rəhbərlik edirdi. İki il onun rəhbərliyi altında fəaliyyət göstərdim. Allaha şükür ki, Ənvər Əhmədovun məktəbini mükəmməl keçə bildim. Bu məktəbin ilk tezisi: heç vaxt tələbənin cibinə girmə. Girmədim. İkincisi, qız uşağına qiymət yazanda xəsislik etmə, həm də bir az səbirli ol. Axı səni dünya gətirən anan da qız olub. Nə xəsislik etdim, nə də səbirsizlik. Üçüncüsü, ixtisasına mükəmməl sahib ol, amma qürrələnmə, elm sonsuzdur. Qürrələnmədim də".

Anar müəllim İnstitutda fəlsəfədən saathesabı dərs aparır, kabinet müdiri və azad komsomol təşkilatı katibi kimi çalışır: "Vəzifənin hər üçündən də əmək haqqı alırdım. Amma təhsil aldığım Bakı Dövlət Universitetini unutmur, nəyin bahasına olursa-olsun orda çalışmağa can atırdım. Vaxt tapan kimi Universitetə (BDU-ya) qaçır, aspirant dostlarımla bir yerdə gün keçirirdim. Düz iki ildən sonra - 1984-cü ilin fevralında Tarix fakültəsinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasında baş laborant kimi əmək fəaliyyətinə başladım. Beş il təhsil aldığım və milli dəyərlərindən yetərincə bəhrələndiyim Bakı Dövlət Universitetinə qayıda bilməyimi sözlə ifadə etmək çox çətindir".

Anar müəllim Azərbaycan elminin və təhsilinin inkişafı sahəsində bu gün də öz fəaliyyətini yorulmadan davam etdirir. 1989-cu ildə respublikada ilk dəfə Tarixşünaslıq və mənbəşünaslıq ixtisası üzrə dissertasiya işini müdafiə edərək, tarix elmləri namizədi elmi dərəcəsini və 1993-cü ildə dosent elmi adını alır. 1999-cu ildə isə Tarix fakültəsinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri seçilir. Hazırda da həmin kafedraya rəhbərlik edir. Professor Anar İsgəndərovun rəhbərliyi altında respublikada mənbəşünaslıq və tarixşünaslıq problemləri üzrə elmi məktəb yaradılıb. Bu elmi məktəb bu gün də uğurla fəaliyyət göstərməkdədir.

Anar İsgəndərov 2004-cü ildə "Azərbaycanda 1917-1918-ci illərdə türk-müsəlman əhalisinə qarşı həyata keçirilən soyqırım probleminin tarixşünaslığı" mövzusunda doktorluq dissertasiyasını uğurla müdafiə edir. Həmin ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin qərarı ilə tarix elmləri doktoru elmi dərəcəsini və 2005-ci ildə isə professor elmi adını alır.

Anar İsgəndərov gənc alimlərin yetişdirilməsində də fəal iştirak edir. Onun rəhbərliyi altında 25 nəfər namizədlik, 5 nəfər doktorluq dissertasiyası müdafiə edib. Hazırda rəhbərliyi altında 10 doktorant, 8 nəfər dissertant dissertasiya mövzuları üzərində tədqiqatlarını davam etdirirlər. Tarix elmləri doktoru proqramı üzrə isə 6 elmlər doktorunun elmi məsləhətçisidir.

Professor A.İsgəndərov 2011-ci ildən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında Tarix və Siyasi Elmlər üzrə Ekspert Şurasının sədri olaraq məsuliyyətli, həm də ölkə elminə töhfə verən bir sahəyə rəhbərlik edir. Uzun illərdir Anar müəllimlə bir yerdə Ekspert Şurasının üzvü olaraq fəaliyyət göstərdiyimə görə deyə bilərəm ki, mən Anar müəllimdən obyektivlik, ciddilik, tələbkarlıq, dürüstlük, elmimiz naminə fədakarlıq və insanlara münasibətdə xeyirxahlıq görmüşəm. Elə bu fədakarlığın və dürüstlüyün nəticəsidir ki, o bir çox Elmi Şura və qürumların üzvüdür.

Anar müəllim həm də imanlı və inanclı adamdır. O, Qafqaz Müsəlmanları İdarəsi Elmi-Dini Şurasının üzvü olaraq, bu iman mərkəzinə öz töhfəsini əsirgəməyib. Onun 2009-cu ildə Azərbaycan, ingilis, rus və ərəb dillərində nəşr olunan "Təzəpirin tarixi" və 2016-cı ildə nəşr olunan "Şeyxülislamlığın tarixi" əsərləri elmi ictimaiyyət və ölkə dindarları tərəfindən yüksək dəyərləndirilib.

Professor Anar İsgəndərovun çoxtərəfli fəaliyyəti və apardığı tədqiqat işləri onun ziyalı ömrünün kamilliyindən soraq verir. O, bir neçə ağır peşənin yükünü öz üzərinə məharətlə götürən və bir ömrə üç uğurlu insan taleyini (bəlkədə daha çox) sığışdıra bilən ziyalılarımızdandır. Bu gün Azərbaycanın elmi ictimaiyyəti onu sanballı elmi araşdırmaların müəllifi və Milli Məclisin fəal üzvlərindən biri kimi tanıyır.

Professor Anar İsgəndərov yüzdən çox tədqiqat əsərinin, monoqrafiya və kitabın elmi məsləhətçisi, elmi redaktoru və yaxud rəyçisi olaraq öz məsləhət və tövsiyələrini verib. Təkcə mənim "Xalq qəhrəmanı Sultan bəy", "Əsirlikdə qalan Laçın", "Azərbaycan tarixi" (Texniki ali məktəblər üçün dərslik), "Azərbaycan ərazilərində erməni saxtalaşdırmaları və ekoloji terror", "Qərbi Azərbaycana aparan yollar" və "Azərbaycan tarixi" (Texniki ali məktəblər üçün proqram) adlı monoqrafiya, kitab və metodik vəsaitlərimin elmi redaktoru, elmi məsləhətçisi olmaqla verdiyi məsləhət və tövsiyələrindən faydalanmışam.

Anar müəllim hazırda Azərbaycanda və ondan kənarda XX əsr Azərbaycan tarixinin görkəmli tədqiqatçılarından biri kimi tanınır. Onun 1997-ci ildə nəşr olunan "1918-ci il Mart qırğınının tarixşünaslığı" adlı monoqrafiyası Azərbaycan tarixşünaslığının böyük uğuru kimi qəbul olunur. O, ilk dəfə 1918-ci il Mart soyqırımı ilə bağlı 90 il ərzində yazılmış əsərləri dövriyyəyə cəlb edib və tarixşünaslıq baxımından onların tənqid və təhlilini verib. Onun 2003-cü ildə geniş oxucu kütləsi üçün nəzərdə tutularaq nəşr edilən "Azərbaycan Xalq Cümhuriyyəti" adlı monoqrafiyası və "Azərbaycan Xalq Cümhuriyyəti" biblioqrafik əsərləri də bu silsilədəndir.

Anar müəlllimin 2006-cı ildə "Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı" adlı fundamental tədqiqat əsəri də təhsilin magistr pilləsi çün dərslik kimi nəşr olunub. Bunlarla yanaşı, Anar müəllimin "Azərbaycan ərazisində erməni quldur və terrorçu birləşmələrinin törətdikləri cinayətlərə dair faktlar" adlı yaddaş kitabçası 2011-ci ildə Azərbaycan, rus və ingilis dillərində çap olunub.

Anar müəllimin Azərbaycan xanlıqlarının çar Rusiyası tərəfindən işğal olunması, ermənilərin Azərbaycan torpaqlarına kütləvi şəkildə köçürülməsi, 1915-1920-ci illərdə Osmanlı və Azərbaycan ərazilərində türk-müsəlman əhalisinə qarşı həyata keçirilən soyqırımlar və Azərbaycan Xalq Cümhuriyyətinə həsr olunan tədqiqat əsəri 2011-ci ildə ABŞ-da "Realites of Azerbaijan: 1917-1920" adı altında nəşr olunub. Əsərə görkəmli ABŞ tarixçisi Castin Makkarti ön söz yazıb. Bu monoqrafiya ABŞ Konqresi kitabxanasına daxil edilən ilk azərbaycanlı müəllifin əsəri olub.

2019-cu ildə onun Azərbaycan, ingilis, rus dillərində "Qafqaz İslam Ordusu və Azərbaycanın xilası" monoqrafiyası, "Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı: Bakı Dövlət Universiteti" (üç dildə) və "Bakı Dövlət Universiteti: 100 ilin elm və təhsil məbədi" kitabları işıq üzü görüb. Professor A.İsgəndərovun ən böyük xidmətlərindən biri də, Gürcüstanın dövlət arxivlərindən və Əlyazmalar İnstitutundan 1823-1918-ci illərdə Tiflisdə fəaliyyət göstərmiş Qafqaz Müsəlmanları İdarəsinin tarixinə dair 75 min, Türkiyə Cümhuriyyəti arxivlərindən isə 10 min səhifəlik sənədi Azərbaycana gətirməsi olub.

Anar müəllim 2001-ci ildən Yeni Azərbaycan Partiyasının üzvüdür. 2003 və 2008-ci illərdə Azərbaycan Prezidenti seçkiləri dövründə cənab İlham Əliyevin seçki kampaniyasında təbliğat və təşviqat qrupunun üzvü olub. Professor Anar İsgəndərov Ulu öndər yoluna sadiqliyini, dövlətçiliyə və Prezident İlham Əliyev siyasətinə sədaqətini əməli fəaliyyəti ilə təsdiq edib və bu yolda yorulmadan çalışmaqdadır.

Professor A.İsgəndərov bütün fəaliyyəti boyu Azərbaycan Prezidentinin siyasətinin əsl təbliğatçısı missiyasını layaqətlə yerinə yetirənlərdən biridir. Yadımdadır, onun 44 günlük Vətən Müharibəsi dövründə, mətbuatda, müxtəlif televiziya kanallarında Azərbaycanın haqq işinin dünyaya çatdırılması, torpaqlarımızın işğaldan azad olunması sevincini yaşatması və gənclərin Vətənə məhəbbəruhunda tərbiyə olunması istiqamətində etdiyi ardıcıl çıxışları böyük rəğbət qazanmışdı.

Anar müəllimin yorulmaz fəaliyyəti nəzərə alınaraq, 2021-ci ilin martında o, Yeni Azərbaycan Partiyasının VII qurultayında Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü seçilib. Eyni zamanda, Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə 2020-ci ilin dekabrında Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun ("YAŞAT" Fondu) Himayəçilik Şurasının üzvü təyin olunub.

Anar müəllim yerinə-yurduna bağlı insandır. Elə buna görə də xalqına, dövlətinə bağlılığı və ona olan etimadın sayəsində VI çağırış 71 saylı Masallı kənd seçki dairəsindən, hazırda isə VII cağırış 78 saylı Lənkəran kənd seçki dairəsindən Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilib. Ona VII çağırış Milli Məclisdə Elm və təhsil komitəsinin sədri kimi məsuliyyətli vəzifə etibar olunub. Bu illər ərzində Milli Məclisin deputatı kimi üzərinə düşən işləri uğurla yerinə yetirir.

Anar İsgəndərovun xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, Azərbaycan Respublikasının Prezidentinin müvafiq sərəncamları ilə "Tərəqqi" medalı, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomu, "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı, "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi" yubiley medalı və digər medallarla təltif edilib.

Bu günlərdə professor Anar İsgəndərovun 70 yaşı tamam olur. Vətənpərvər alim, özəl bacarıqlı təşkilatçı rəhbər, gözəl ailə başçısı, yaxşı ata, sevimli baba, sadəliyi, səmimiyyəti, dürüstlüyü, dostluqda nümunə olması, xeyirxahlığı ilə seçilən əziz dostum Anar müəllimi yubileyi münasibətilə ürəkdən təbrik edirəm. Ona möhkəm can sağlığı, xoş ovqatla yaşanan uzun ömür və şərəfli fəaliyyətində uğurlar diləyirəm.

**Şikar QASIMOV**
**Bakı Mühəndislik Universiteti Magistratura və doktorantura şöbəsinin müdiri, tarix elmləri doktoru, professor**